**Aksiz siyasətlərinin uyğunlaşdırılması...**

Belçika Krallığının paytaxtı Brüssel şəhərində Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı çoxtərəfli formatının «İqtisadi inteqrasiya və Aİ siyasətlərinə uyğunlaşma»" məsələləri üzrə 2-ci platforması çərçivəsində «Aksiz siyasətlərinin uyğunlaşdırılması»" mövzusunda seminar keçirilmişdir.

Seminarda avropalı ekspertlər aksizlər sahəsində vergi siyasəti, vergi harmonizasiyası və uyğunlaşdırma tədbirləri barədə xüsusi təqdimatlarla çıxış etmişlər. Bildirilmişdir ki, Avropa dövlətlərinin vergi sistemlərinin harmonizasiyası prosesinin əsası 1951-ci ildə Avropa Kömür və Polad Birliyi (ECSU) yaranan zaman qoyulmuşdur. ECSU-nun yaradılması haqqında sazişə əsasən, iştirakçı dövlətlərin sərhədlərində qara metallurgiya və daş kömür sənayesi məhsullarına gömrük rüsumları ləğv edilmiş, üçüncü dövlətlərə münasibətdə vahid gömrük tarifi tətbiq edilməyə başlamışdır.

Aksizlər sahəsində uyğunlaşdırma vahid bazarda ədalətliliyin təmin olunması və üzv olmayan dövlətlərdən qaçaqmalçılıq hallarının qarşısının alınmasına xidmət edir.

Seminarda Aİ-yə üzv olmayan dövlətlərin nümayəndələri də aksiz qanunvericiliyi barədə təqdimatlarla çıxış edərək, aksizlərin dərəcələri, strukturu, azadolmalar və digər vergitutma elementləri barədə ətraflı məlumat vermişlər. Seminarda ölkəmizi Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Vüsal Şıxəliyev təmsil etmişdir.